*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 sentyabr 2018-ci il № 71 (2287) Qiyməti 25 qəpik


## Rəsmi xronika

*✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də ATƏT-in baş katibi Tomas Qremingeri qəbul edib.*

*Prezident İlham Əliyev Ermənistanda demokratiya adı altında insan haqlarının kütləvi şəkildə pozulması hallarına, Ermənistanın baş naziri tərəfindən siyasi rəqiblərinin həbsi haqqında verdiyi göstərişlərə, Ermənistanda yeni diktatura rejiminin yaranmasına ATƏT-in biganə qalması ilə bağlı müraciət edib.*

*Söhbət zamanı regional təhlükəsizlik, demokratik inkişaf, nəqliyyat, iqtisadi əməkdaşlıq ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.*

* * *

*✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Çex Respublikasının sənaye və ticarət naziri xanım Marta Novakovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişafının razılıq doğurduğunu qeyd edən dövlətimizin başçısı ticarət dövriyyəsinin artdığını vurğuladı, iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün əlavə imkanların müəyyənləşdirilməsinin zəruriliyini bildirdi.*

* * *

*✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də NATO Parlament Assambleyasının sədri Paolo Allinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Dövlətimizin başçısı Azərbaycan ilə NATO arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirərək NATO Parlament Assambleyasının iqtisadiyyat və təhlükəsizlik komitəsinin Bakıda keçirilən iclasının bu əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğuladı.*

**AZƏRTAC-ın materialları əsasında**

# Prezident İlham Əliyev İsrailin Müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də İsrail Dövlətinin Müdafiə naziri Aviqdor Libermanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.*

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə İsrail arasında iqtisadi, hərbi, mədəniyyət, turizm sahələrində əlaqələrin inkişafından məmnunluq bildirildi, Aviqdor Libermanın ölkəmizə səfərinin əməkdaşlıq işinə öz töhfəsini verəcəyinə ümidvarlıq ifadə olundu.

Söhbət zamanı Azərbaycanda digər icmalarla yanaşı, yəhudi icmasının nümayəndələrinin də dinclik və əmin-amanlıq şəraitində yaşamaları üçün hər cür şəraitin yaradıldığı qeyd olundu, onların ölkəmizin ictimai həyatında fəal rol oynadıqları bildirildi.

# Paolo Alli: Azərbaycan Qafqaz regionunda sabitliyin təminində açar rolunu oynayır

Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov sentyabrın 13-də NATO Parlament Assambleyasının sədri Paolo Allinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov Azərbaycanın beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq etdiyini bildirib. Qeyd edib ki, NATO ilə əməkdaşlıq ölkə siyasətinin əsas prinsiplərindən biridir. Azərbaycanın 24 ildir bu qurumla uğurlu əməkdaşlıq etdiyini söyləyən Milli Məclisin sədri vurğulayıb ki, bu illər ərzində NATO-nun ən yüksək səviyyəli nümayəndələrinin ölkəmizə səfərləri olub.

Oqtay Əsədov diqqətə çatdırıb ki, Azərbaycan NATO tərəfindən həyata keçirilən sülhməramlı dəstək proqramlarında iştirak edir. Hazırda 120 Azərbaycan əsgəri Əfqanıstanda xidmət edir. Milli Məclisin sədri ölkəmizin təkcə NATO ilə deyil, həmçinin NATO Parlament Assambleyası ilə də əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu deyib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun həlli ilə bağlı danışıqlar prosesi barədə məlumat verən Oqtay Əsədov NATO PA-da bu məsələ ilə əlaqədar sənədin qəbulunun vacibliyini qeyd edib.

NATO-da enerji təhlükəsizliyinin çox vacib məsələ olduğunu deyən Milli Məclisin sədri bildirib ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Diqqətə çatdırılıb ki, Qədim İpək yolunun dəmir yoluna çevrilməsi layihəsi Asiya və Avropa arasındakı məsafəni daha da azaldır.

NATO Parlament Assambleyasının sədri Paolo Alli söyləyib ki, Cənubi Qafqazdakı təhlükəsizlik bütövlükdə dünya üçün olduqca böyük əhəmiyyət kəsb edir. "Biz bilirik ki, Azərbaycan Qafqaz regionunda sabitliyin təminində açar rolunu oynayır",- deyə Paolo Alli qeyd edib. O, Azərbaycanın NATO əməliyyatlarındakı uğurlu iştirakını da xüsusi qeyd edib.

Paolo Alli Azərbaycan nümayəndə heyətinin NATO PA-dakı fəaliyyətini təqdirəlayiq hal hesab edib.

Görüşdə əməkdaşlığın perspektivləri və tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə İsrail arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub



*Sentyabrın 13-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan İsrail Dövlətinin Müdafiə naziri Aviqdor Libermanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Görüşdən əvvəl İsrailin nümayəndə heyəti Fəxri xiyabanda xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Qonaqlar, həmçinin Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə gül dəstələri, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib.

İsrailin Müdafiə naziri fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin dövlət himnləri səsləndirilib və protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.



İki ölkə arasında tərəfdaşlığın yüksək səviyyəsindən danışan general-polkovnik Zakir Həsənov bunun təkcə dövlətlərimizin inkişafında deyil, həm də bütün regionda təhlükəsizliyin təmin edilməsində mühüm rol oynadığını qeyd edib.

Azərbaycanın Müdafiə naziri Ermənistanın regional sabitliyə əsas təhlükə yaratdığını, işğalçı ölkənin dövlət səviyyəsində daim separatizmi dəstəklədiyini və qoşunların təmas xəttində gərginliyin artırılmasında maraqlı olduğunu diqqətə çatdırıb.

Xalqlarımız arasında mövcud olan tarixi kökləri və əlaqələri yüksək dəyərləndirən A.Liberman ölkələrimiz arasında münasibətlərin hazırkı vəziyyətindən məmnunluğunu bildirərək bu cür görüşlərin keçirilməsinin zəruriliyini xüsusi qeyd edib.

Görüşdə regional təhlükəsizlik, iki ölkə arasında hərbi, hərbi-texniki sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, müxtəlif ixtisaslı mütəxəssislər səviyyəsində işçi görüşlərin təşkili və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***14 sentyabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 92 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Ayqeovit kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Fərəhli, Quşçu Ayrım, Cəfərli və Bala Cəfərli kəndlərində, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Əsrik Cırdaxan və Qaralar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Nəmirli, Tağıbəyli, Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qaraxanbəyli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## "TURAZ Şahini-2018" təlimləri davam edir



*Azərbaycan ilə Türkiyə arasında illik hərbi əməkdaşlıq planına əsasən, Konya şəhərində sentyabrın 3-dən başlayan "TURAZ Şahini-2018" birgə taktiki-uçuş təlimlərinin planına əsasən döyüş təyyarələri verilmiş hündürlükdə marşrut üzrə birgə uçuşlar yerinə yetiriblər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərin növbəti günündə şərti düşmənin hava hücumundan müdafiə vasitələrinə, yerüstü hədəflərinə zərbələr endirmək üzrə tapşırıqlar yerinə yetirilib, onun qırıcı aviasiyasından yayınma manevrləri icra edilib.

## Azərbaycan Ordusu genişmiqyaslı təlimlərə başlayır

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə sentyabrın 17-dən 22-dək Azərbaycan Ordusunun müxtəlif qoşun növləri, qismləri, birlik və birləşmələrinin iştirakı ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərə 20 mindən artıq şəxsi heyət, 200-dən çox tank və digər zirehli texnika, 120-dən çox müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 10-dək qırıcı və bombardmançı, 20-dək müxtəlif təyinatlı ordu aviasiyası cəlb olunacaq.

Təlimlər zamanı eşelonlaşdırılmış düşmən müdafiəsinin tanklar vasitəsilə müxtəlif istiqamətlərdə yarılması, Qarabağ ərazisindəki Ermənistan hərbi qruplaşmalarının, eləcə də onun ön xətt qüvvələrinin darmadağın edilməsi, düşmən ərazisinin dərinliyində yerləşən hərbi və strateji obyektlərin raket-artilleriya və aviasiya zərbələri ilə məhv edilərək ərazilərimizin azad edilməsi üzrə tapşırıqlar yerinə yetiriləcək.

Təlimlərdə, həmçinin son illər ərzində Azərbaycan Ordusunun silahlanmasına qəbul edilmiş ən yeni hərbi texnika və silahlara şəxsi heyətin yiyələnmə vərdişləri yoxlanılacaq.

## Paolo Alli NATO ilə Azərbaycan arasında əlaqələri yüksək qiymətləndirib

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan NATO Parlament Assambleyasının sədri Paolo Alli ilə görüşüb.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə NATO arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri, regional təhlükəsizlik, iqtisadi əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Elmar Məmmədyarov Azərbaycanın NATO ilə etibarlı və davamlı tərəfdaşlıq əlaqələrinə malik olduğunu bildirərək, ölkəmizin Əfqanıstanda beynəlxalq sülhməramlı əməliyyatların dəstəklənməsi işinə sadiqliyini vurğulayıb. Qeyd edib ki, Azərbaycan təkcə NATO ilə əməkdaşlıq çərçivəsində deyil, eyni zamanda, Əfqanıstanla müxtəlif sahələrində ikitərəfli əməkdaşlıq, o cümlədən iqtisadiyyat və investisiya sahələrində əlaqələr həyata keçirir. Elmar Məmmədyarov həmsöhbətinə Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən irimiqyaslı transregional nəqliyyat və enerji layihələri haqqında məlumat verərək TAP layihəsinin Avropanın enerji təhlükəsizliyinə perspektiv töhfəsini qeyd edib.

Görüşdə regional məsələlər də müzakirə olunub.

# Azərbaycan ilə Bolqarıstan arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub



Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov ölkəmizdə səfərdə olan Bolqarıstan Respublikası Müdafiə Nazirliyinin İkitərəfli Əməkdaşlıq və Regional Təşəbbüslər İdarəsinin rəisi xanım Daniela Qriqorovanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə regional təhlükəsizlik məsələləri müzakirə olunub, ikitərəfli hərbi əməkdaşlığın hazırkı vəziyyəti, inkişaf perspektivləri və əlaqələrin genişləndirilməsi istiqamətində görüləcək birgə tədbirlər nəzərdən keçirilib.

# HDQ-də gənc matroslarla maarifləndirici söhbətlər aparılıb



*Müdafiə Nazirliyinin və Respublika Hərbi Prokurorluğunun 2018-ci ilə dair birgə fəaliyyət planına əsasən, Hərbi Dəniz Qüvvələrində gənc matroslarla görüş keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarına uyğun qurulmasına dair gənc matroslarla maarifləndirici söhbətlər aparılıb və onları maraqlandıran suallara cavab verilib.

# Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 12-də Ağdam rayonu istiqamətində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik və onun səhra köməkçisi Mixail Olaru aparıblar.

# Güclü əsgər - güclü ordu

*Bu gün müasir standartlara cavab verən əsgər yataqxanaları, yeməkxana, camaşırxana kompleksləri və digər müasir avadanlıqlarla təchiz olunmuş hərbi hissələr istifadəyə verilir. Yeni tikilmiş hərbi hissələrdə əsgərlərin fiziki hazırlıqla məşğul olmaları üçün idman şəhərcikləri də salınır və dərslərin keçirilməsi üçün ideoloji otaqlar tikilir.*

"N" hərbi hissəsində şəxsi heyət üçün yaradılan sosial-məişət şəraiti ilə tanış olduq. Əsgər yataqxanasında yaradılan şərait, səliqə-sahman könül oxşayırdı. Yataqların düzgün yığılması, dolablardakı təmizlik nizam-intizamın yüksək səviyyədə olmasına bariz nümunədir.

Gizir Əjdər Hüseynov yaradılan şəraitlə bağlı fikrini bildirdi: "Hərbi hissəmizdə yaradılan şəraitlə tanış olan əsgər valideynləri övladlarının xidməti müddətində nigarançılıq hissi keçirmirlər. Hərbi hissəmizdə şəxsi heyətin gündəlik fəaliyyətlə məşğul olması üçün hər cür şərait yaradılıb. Əsgərlərimizin üzərinə düşən əsas vəzifələrdən biri qaldıqları yataqxanalarda səliqə-sahman yaratmaqdır. Biz hər bir əsgəri təlimatlandırır, işin düzgün təşkil olunması üçün əlimizdən gələn köməyi əsirgəmirik".

Əsgər Ramazan Sadıqov dedi ki, hər birimiz burada yaradılan şəraitdən razıyıq. “Bölüyümüzün baş çavuşu bizi ütülənmiş yataq dəstləri, adyal və dəsmal ilə vaxtlı-vaxtında təmin edir. Yataqxanamızın daxilində məişət, qurutma, yuyunma otaqları var ki, bu da bizim təmizlik işlərimizi görməyimizdə mühüm rol oynayır. Hərbi hissəmiz xidmətin təşkili üçün bütün zəruri avadanlıqlarla təchiz olunub.”

- Yataqxanamızın təmizliyi bizim öz evimizin təmizliyi deməkdir, - əsgər Mirzəbala Şakirov dedi. - Burada özümüzü evimizdəki kimi hiss edirik. Hərbi geyimlərimizi təmizləmək üçün camaşırxana fəaliyyət göstərir. İstifadə etdiyimiz geyim və yataq dəstləri yüksək texnoloji avadanlıqlarla təchiz olunmuş camaşırxanada yuyulur, ütüləndikdən sonra bizə təhvil verilir. Komandirlərimizin qayğımıza qalması, bizimlə yaxından maraqlanması xidmətimizdə uğura nail olmağa stimul verir. “Birimiz hamımız - hamımız birimiz üçün” devizi ilə xidmət edirik.

- Komandirlərimizin tapşırıqlarını yerinə yetirməklə, döyüş və fiziki hazırlığımızı artırmaqla, yataqxanalarımızı təmiz saxlamaqla çalışırıq ki, nümunəvi əsgər olaq. Xidməti başa vuran dostlarımla söhbətləşəndə mənə bildirirdilər ki, ordumuzda əsgərlərin fəaliyyətinin düzgün təşkili üçün hər şey düşünülüb. Xidmətə gəldim, gördüm, - əsgər Məhəmməd Şərifov dedi.

Cəlilabad rayonundan xidmətə çağırılan əsgər Sadiq Ağayev Azərbaycan Ordusunun əsgəri adından qürurlandığından söz açdı: "Hərbi verilişləri böyük maraqla izləyərdim. Bu gün də Azərbaycan Ordusunun əsgəri olaraq xidmət etdiyim hərbi hissədə hərbi proqramlara baxıram. Çox sevinirəm ki, belə güclü, müasir ordunun əsgəriyəm. Burada idmanla məşğul olmağımız üçün şərait yaradılıb. Güclü əsgər güclü ordu deməkdir. Hərbi hissəmizdə asudə vaxtımızın təşkili üçün də istirahət guşəsi fəaliyyət göstərir. Sıra baxışı öncəsi bərbər yoldaşımız məişət otağında saçımızı qaydasına salır. Komandanlığın bizə diqqəti və qayğısını daim öz üzərimizdə hiss edirik. Bu gün biz güclü ordunun əsgərləriyik."



**Leytenant Fuad CƏFƏROV, "Azərbaycan Ordusu", foto C.CƏFƏROVUNDUR**

# “Azərbaycan ərazilərinin işğalının davam etdirilməsinə görə Ermənistan məsuliyyət daşıyır”

*Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəhbəri Hikmət Hacıyev Ermənistanın baş naziri Nikol Paşinyanın parlamentdəki çıxışına münasibət bildirib.*

Hikmət Hacıyev AZƏRTAC-a deyib: "Ermənistan baş naziri Nikol Paşinyanın Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin danışıqlar masasına gətirilməsi barədə iddialarının yeganə məqsədi danışıqlar prosesini pozmaqdan ibarətdir. Gücdən istifadə edərək Azərbaycan ərazilərinin hərbi işğalının davam etdirilməsinə görə məsuliyyət daşıyan tərəf Ermənistandır. İşğal faktına görə beynəlxalq hüquqi məsuliyyət münaqişə tərəfi kimi Ermənistanın üzərinə düşür. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə görə, Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmayana qədər Ermənistan bu məsuliyyətdən qaça bilməz".

AZƏRBAYCAN ORDUSU

Bakının azad edilməsinin 100 illiyi

# 15 sentyabr - Zəfər tarixi

*1918-ci ildə öz müstəqilliyini elan etməsi ərəfəsində Azərbaycanda mürəkkəb və təhlükəli hərbi-siyasi şərait mövcud idi. Belə ki, Cümhuriyyətin elan edildiyi sərhədlər daxilində olan ərazilərin çoxu, o cümlədən də Bakı şəhəri Azərbaycan xalqının müstəqilliyinə və mövcudluğuna qənim kəsilmiş yad qüvvələrin işğalı altında idi. Obyektiv tarixi səbəblər üzündən Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndə onun müstəqilliyini müdafiə etməyə qadir olacaq yetərli milli hərbi qüvvələr hələ formalaşmamışdı. Ona görə də Cümhuriyyət hökuməti hərbi kömək göstərilməsi üçün Osmanlı Türkiyəsinə müraciət etdi və bu müraciətdən sonra Azərbaycana gəlmiş türk hərbi qüvvələri ilə Azərbaycanın milli hərbi qüvvələrinin bazasında Qafqaz İslam Ordusu yaradıldı. Nuru paşa ordunun komandanı təyin edildi.*

1918-ci il iyulun son günlərində Qafqaz İslam Ordusu qüvvələrini Bakı ətrafında cəmləşdirməsi ilə Stepan Şaumyanın rəhbərliyi altında olan Bakı Soveti şəhərə nəzarəti Sentrokaspi adlanan eser-menşevik-daşnak hökumətinə təhvil vermək məcburiyyəti qarşısında qaldı. Sentrokaspi diktaturası özünü Bakının hakimi elan etdikdən sonra daşnak nümayəndələri İrana göndərildi və İranda mövcud olan ingilis hərbi qüvvələrinin komandanı general Denstervil rəhbərlik etdiyi hərbi qüvvə ilə birlikdə Bakıya dəvət olundu. Bakı neftinə və bütünlükdə Xəzər hövzəsinə sahib olmaq üçün yollar axtaran Böyük Britaniya hökuməti yaranmış fürsətdən istifadə etməyə çalışdı və general Denstervilə göstəriş verildi ki, Bakıya hərbi qüvvə çıxarsın. Nəticədə, Bakıya göndərilməsi qərarlaşdırılan 39-cu ingilis briqadasının ilk bölmələri 1918-ci il avqustun 4-də gəmilərlə Ənzəlidən Bakıya gətirildi. Onların gəlişini sonsuz sevinclə qarşılayan erməni daşnakları öz niyyətlərinə çox yaxın olduqlarını düşünürdülər. Bakı üzərində həyata keçirilmiş ilk genişmiqyaslı hücumun nəticələri də onların bu sevincini artırırdı. Belə ki, 1918-ci il avqustun 5-də Qafqaz İslam Ordusu qüvvələri tərəfindən Bakı şəhərinin təmizlənməsi üçün başlanılan ilk irimiqyaslı hücum gözlənilən nəticəni vermədi. Qafqaz İslam Ordusunun qüvvələri Qurd qapısı istiqamətindən başlanan hücumda bu yüksəkliklərdə yerləşən ilk səngərləri ələ keçirsələr də, döyüşün inkişaf etdirilməsi üçün yaranan təchizat çətinlikləri üzündən sonradan əvvəlki mövqelərinə geri çəkilmək məcburiyyətində qaldılar.

5 avqust döyüşünün nəticələri Qafqaz İslam Ordusu komandanlığının iradəsini qıra bilmədi. Dərhal Bakı üzərinə növbəti uğurlu hücumun təşkil edilməsi üçün zəruri hazırlıq tədbirlərinin müəyyənləşdirilməsinə və həyata keçirilməsinə başlandı. Cəbhə bölgəsində aparılan təhlillərdən sonra Azərbaycana əlavə bir türk diviziyasının göndərilməsi haqqında məsələ qaldırıldı. Bu məsələ ilə bağlı Türkiyə Hərbi Nazirliyinə müraciət edildi. Bakı şəhərinin ən qısa zamanda azad olunmasını arzulayan Ənvər paşa da bu təkliflə razılaşaraq 15-ci piyada diviziyasının Bakı ətrafına göndərilməsi haqqında sərəncam verdi.

Eyni zamanda Azərbaycan daxilində yenidən mövcud qüvvələrin cəbhəyə səfərbər edilməsi üçün lazımi tədbirlər görüldü. Bakı ətrafındakı milli qüvvələrə kömək məqsədilə Ağdaş alayının bölmələri bura gətirildi, Qazax və Gəncə ətrafında toplanmış milli qüvvələrin Bakı ətrafına göndərilməsinə göstəriş verildi.

Sentyabrın 6-da Türkiyədən əlavə olaraq göndərilən 15-ci piyada diviziyası nəhayət ki, Ağstafaya çatdı və oradan da qatarla Gəncəyə yola düşdü. Elə həmin gün saat 10-da Gəncə dəmir yolu stansiyasında diviziyanın şəxsi heyətinin qarşılanması oldu. Bundan sonra 15-ci diviziya Bakı ətrafına yola salındı. Bu diviziyanın gəlişi ilə Bakı üzərinə həlledici hücuma hazırlıq son mərhələsinə qədəm qoydu. Hücumun təşkili məqsədilə sentyabrın 10-da Qafqaz İslam Ordusu komandanı Nuru paşa və Azərbaycan Korpusunun komandanı Ələğa Şıxlinski Bakı ətrafına gəldilər.

Nuru paşa və Ələğa Şıxlinski şəhər ətrafındakı vəziyyətlə tanış oldular, komandirlərin məruzələrini dinlədilər. Mövcud vəziyyət qiymətləndirildikdən sonra sentyabr ayının 13-də saat 17:11-də Hacı Həsən kəndinin qərbindəki müşahidə məntəqəsində Nuru paşa Bakı üzərinə həlledici hücumu başlamaq barədə döyüş əmrini imzaladı. Əmrə əsasən, Bakı şəhərinin azad edilməsi üçün həlledici hücum sentyabrın 14-nə keçən gecə başlamalı idi.

Bakı şəhəri üzərinə hücum edən 5-ci türk piyada diviziyasının qərargah rəisi qaymaqam Rüştü bəy xatirələrində yazırdı ki, o gecə heç kim yatmamışdı və döyüşçülər 5 avqust döyüşünün intiqamını almaq üçün hücum saatının çatmasını səbirsizliklə gözləyirdilər: "Bunu ərz etməliyəm ki, 5-ci Qafqaz firqəsi ona Vətən əqsamının istihlas və istirdadında Azərbaycanda olduğu qədər müşkülata, qanlı və ələmli zayiata uğramamışdı. Həm din və həm irqini qurtarmaq üçün mənsub olduğu millətin və ordunun qəhrəmanlıq dastanını yerə düşürməmək üçün zabitan və əfradımız böyük bir fərağati-nəfislə çalışmış, qiymətli qanlarını axıtmış və bilafütur müəzzəz canlarını da fəda etmişlərdi.

İstiqlalına aşiq Anadolu türkü nəhayət qonşu və qardaş millətin istiqlalını da həmin mücadilələr ilə təmin və azərbaycanlıların əlinə tövdü və təslim etmişdi.

Bakısız Azərbaycan başsız bir vücuddur. Onsuz bir işə yaramazdı. Binaənəleyh Azərbaycan Cümhuriyyəti və istiqlaliyyətini bəhəmehal Bakı ikmal və itmam edəcəkdi. 5-ci Qafqaz firqəsi bunu əldə etmək üçün avqust bidayətlərində günlərcə boğaz-boğaza düşmənlə müharibə və mücadilə etdi. Fəqət məalesəf Bakının alınması 39 gün qədər təəhhür etdi".

Rüştü bəy onu da əlavə edirdi ki, qarşıda ağır bir döyüş dayanırdı. Qurd qapısı üzərindən hücuma keçmək elə də asan deyildi. Bu sərt təpəliklərə qalxmaq üçün yalnız ensiz bir yol var idi. Qoşunlar isə daha geniş bir cəbhədə hərəkət etməli idilər. Onlar gecə ikən Şubanı yüksəkliklərindən enməli, dəmir yolunu keçdikdən sonra sərt təpəliklərə qalxmalı idilər. Hələ gündüz ikən bu təbii maneələri adlamaq çox böyük zəhmət tələb edirdi. Gecə isə tam səssizliyə riayət edilməsi, düşmənin duyuq düşməsinə yol verilməməsi lazım idi.



Öndə ortada Ələğa Şıxlinski və Nuru paşa

Hazırlanmış hücum planına əsasən, 5-ci türk diviziyası və ona verilmiş milli hərbi dəstələr Bayıldan başlayaraq təxminən Biləcərinin qərb ətəklərinə qədər olan ərazidən hərəkət etməli idi. Biləcəri-Sabunçu-Əhmədli dairəsi boyunca isə 15-ci türk diviziyası və ona verilmiş milli hərbi qüvvələr hücuma keçməli idilər. Azərbaycanın milli hərbi qüvvələrinin və könüllü dəstələrinin böyük bir hissəsi bu istiqamətdən hücuma qoşulmuşdu. Nəzərdə tutulmuşdu ki, əsas zərbə Qurd qapısı istiqamətindən vurulsa da, Bakının şimal-şərq dairəsi boyunca mövcud olan düşmən qüvvələri də tədricən şəhərə sıxışdırılsın.

Hücum planına görə, 5-ci türk diviziyası Qurd qapısı yüksəkliklərinə qalxmaqla düşmənin birinci və ikinci müdafiə xətlərini ələ



Nuru paşa

keçirməli və sonra orada möhkəmlənməli idi. Ardınca da arxada qalmış toplar və onların sursatları ələ keçirilmiş müdafiə səngərlərinə daşınmalı idi. Baxmayaraq ki, Qurd qapısı yüksəklikləri ilə topları sürüyüb çıxarmaq elə də asan deyildi, amma göstərilən əzmkarlıq, qətiyyət və yüksək sürət hələ gecə ikən ilk müdafiə səngərlərini ələ keçirməyə və orada möhkəmlənməyə imkan verdi. Bu hücum elə bir sürətlə həyata keçirildi ki, hətta Qafqaz İslam Ordusunun komandanlığı üçün də onun nəticələri xoş bir təəccüblə qarşılandı. Eyni ilə ingilis qoşunları komandanı general Denstervil də gözlərinə inana bilmirdi ki, gecə vaxtı, əlverişli mövqelərdə qurulmuş müdafiə səngərləri belə bir sürətlə ələ keçirilmişdir. Öz xatirələrində o, Qafqaz İslam Ordusu qüvvələrinin sürətli hücumunu belə təsvir edirdi: "İnanılası mümkün deyildi ki, cəbhəmizin ən güclü sahəsi düşmən tərəfindən belə asanlıqla ələ keçirildi. Xüsusilə də bütün qoşunlar gözlənilən hücum barədə xəbərdar edildikləri bir vaxtda. Nə qədər inanılası mümkün olmasa da bu, məhz belə idi. Bütün üstünlüklərin bizim tərəfimizdə olmasına baxmayaraq hücumun elə ilk anlarından darmadağın edilən belə qoşunlarla heç nəyə ümid etmək mümkün deyildi və bizim indi yeganə vəzifəmiz geri çəkilməyi təmin etmək və qoşunların düzgün təxliyyəsini təşkil etmək üçün düşmən hərəkətlərini ləngitmək idi".

Axşam saat 8-də ingilis qüvvələrinə geri çəkilmək əmri verildi. Bununla da Sentrokaspi rəhbərləri ümid bağladığı əsas qüvvələrdən məhrum oldular. Ayın 14-də Bakı şəhəri Qafqaz İslam Ordusu tərəfindən ələ keçirilməmişdisə də, artıq onun taleyi həll olunmuşdu.

Sentyabr ayının 14-ü üçün qarşıya qoyulan tapşırığı yerinə yetirən Qafqaz İslam Ordusu qüvvələri həmin günün gecəsini istirahət etməklə bərabər, həm də son döyüşə hazırlıq da keçirdilər. Sentyabrın 15-də Qafqaz İslam Ordusu qüvvələri uğurlu hücumu davam etdirdilər və qarşıya qoyulmuş vəzifənin həllinə daha da yaxınlaşdılar. Çıxış yolunun qalmadığını görən Sentrokaspi rəhbərliyi Qafqaz İslam Ordusu rəhbərliyi ilə əlaqə yaradılması üçün yollar aramağa başladı. Bu məqsədlə Sentrokaspi rəhbərliyi sentyabrın 14-də axşam saat 8-də İranın Bakıdakı konsulu Səadülvüzəradan Bakı üzərinə hücumun dayandırılması üçün vasitəçilik etməyi xahiş etdilər. Bu təklifi alandan sonra Səadülvüzəra iki nəfəri məktub və ağ bayraqla döyüş mövqelərinə göndərdi. Lakin onlar Qafqaz İslam Ordusu komandanlığı ilə əlaqə yarada bilmədilər. Səhəri gün, yəni sentyabrın 15-də İran konsulu yenidən vasitəçilik missiyasının icrasına davam etdi. Nəhayət, tərəflər arasında aparılan danışıqlardan sonra Sentrokaspi rəhbərliyi Bakı şəhərini Qafqaz İslam Ordusunun nəzarəti altına verməyi öz üzərinə götürdü. Beləliklə, Bakı şəhəri bütünlüklə Qafqaz İslam Ordusu tərəfindən azad edildi. Sentrokaspi Diktaturasının şəhərdəki dayaqları olan qüvvələr gəmilər vasitəsilə qaçıb canlarını qurtardılar. Qaçmaq imkanı olmayanlar isə təslim oldular.

Ənvər paşa Nuru paşaya göndərdiyi teleqramında yazırdı: "Böyük Turan imperatorluğunun Xəzər kənarındakı zəngin bir qonaq yeri olan Bakı şəhərinin zəbti xəbərini ən böyük müsərrətlə qarşılarım. Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözlərindən öpər, şəhidlərimizə fatihələr ithaf edərim".

Bakının azad edilməsi xəbərini M.Ə.Rəsulzadə İstanbulda olarkən eşitdi. O dərhal Azərbaycan hökumətinin sədri F.Xoyskiyə teleqram göndərib Azərbaycan xalqını və hökumətini bu tarixi hadisə münasibətilə təbrik etdi. Teleqramda deyilirdi: "Hürriyyət və istiqlaliyyət uğrunda çarpışan türk millətinin istinadgahı olan Bakının qurtuluşu münasibətilə rəisi bulunduğunuz hökumət ərkanını candan təbrik edər və salamlaram".

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ilk sədri Fətəli xan Xoyski Bakının azad edilməsi uğrunda türk hərbçilərinin göstərdiyi xidmətləri Nuru paşaya xitabən dəyərləndirmişdi: "Millət sizə minnətdardır". N.Yusifbəylinin fikrincə, Azərbaycan durduqca bu üç kəlmə azərilərin dilində və qəlbində yaşayacaqdır.

Sentyabrın 16-da səhər tezdən Qafqaz İslam Ordusunun Bakının asayişində dayanan hissələrindən başqa qalan qüvvələrin rəsmi keçidi keçirildi. Bu rəsmi keçid Qırmızı Qışla adlanan məntəqədə (İndiki Bakı Dövlət Universiteti ilə Bakı-Quba yolu arasında yerləşirdi) təşkil edildi. Rəsmi keçiddə Xəlil paşa, Nuru paşa, Ələğa Şıxlinski, Həbib bəy Səlimov, Azərbaycan hökumətinin bir sıra üzvləri də iştirak edirdilər. Rəsmi keçid bitdikdən sonra adları çəkilən şəxslər, qonaqlar və qoşun hissələri şəhərə daxil oldular. Generallar və rəsmi şəxslər at belində idilər. Onların ardınca isə nizami şəkildə piyada, topçu, süvari və köməkçi hissələr hərəkət edirdi. Şəhər əhalisi küçələrə çıxaraq Qafqaz İslam Ordusunun qalib döyüşçülərini salamladılar.

**Mehman SÜLEYMANOV,**
**tarix elmləri doktoru,**
**ehtiyatda olan polkovnik**

# Bakının işğaldan azad olunmasının 100 illiyi Respublika Veteranlar Təşkilatında qeyd edilib

*Sentyabrın 12-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Bakının daşnak-bolşevik qüvvələrinin işğalından azad olunmasının 100 illiyi ilə bağlı tədbir keçirilib.*






AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov Azərbaycanın Milli Ordusunun Qafqaz İslam Ordusu ilə birlikdə Bakını daşnak-bolşevik qüvvələrinin işğalından azad etməsinin 100 illiyini qeyd etdiyini deyərək bildirib ki, Azərbaycanın əsgər və zabitləri də türk qardaşlarımızla birlikdə Bakının düşməndən təmizlənməsində şərəflə döyüşüblər. Biz bu gün onları minnətdarlıq hissi ilə xatırlayırıq.

Respublika Veteranlar Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov qeyd edib ki, Bakının daşnak-bolşevik işğalından azad olunması həm qürurverici hadisədir, həm də Türkiyə-Azərbaycan qardaşlığının bariz nümunəsidir. 1918-ci il sentyabrın 15-də Azərbaycan Əlahiddə Korpusu Qafqaz İslam Ordusu ilə birlikdə qanlı döyüşlər apararaq Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas edib. Azərbaycan və türk əsgərlərinin, zabitlərinin igidliyi nəticəsində qısa müddətdə Bakı əsasən ermənilərdən ibarət olan daşnak-bolşevik qüvvələrindən azad olunub.

Qeyd edilib ki, Stepan Şaumyan 1918-ci ilin mart-iyul aylarında Bakı Sovetinə tabe olan daşnak silahlı dəstələrindən və bolşevik hərbi birliklərindən istifadə edərək Azərbaycanın Bakı, Şamaxı, Quba və başqa qəzalarında qırğınlar törədib, yüzlərlə yaşayış məskənini dağıdıb, dinc insanları amansızcasına qətlə yetirib. Həmin dövrdə Gəncə üzərinə yürüş edən düşmən qüvvələrinin qarşısının alınması üçün öz hərbi gücü yetərli olmadığından Azərbaycan nümayəndələri kömək məqsədilə Türkiyəyə, o zamankı Osmanlı dövlətinə müraciət ediblər. Bu müraciətə müsbət cavab verən qardaş dövlət Qafqaz İslam Ordusunu 1918-ci ilin mayında Azərbaycan ərazisinə köməyə göndərib. Burada general Ələğa Şıxlinskinin başçılıq etdiyi müsəlman Milli korpusu ilə birləşən Nuru paşanın rəhbərlik etdiyi həmin ordunun 1918-ci il iyunun əvvəllərində artıq 15 min əsgər və zabiti var idi.

Bildirilib ki, Bakı Sovetinin ixtiyarında olan, mütləq əksəriyyəti ermənilərdən ibarət hərbi birləşmələr iyunun 12-də Kürdəmiri işğal edib və Göyçaya yaxınlaşıblar. Göyçay ərazisində qanlı döyüşlər iki həftədən çox davam edib. Müqavimətə baxmayaraq, Türkiyədən göndərilən əlavə qüvvələr və Azərbaycan könüllüləri düşməni məğlub ediblər. Qafqaz İslam Ordusunun Göyçay ətrafındakı qələbəsi hadisələrin gedişini tamamilə milli hökumətin xeyrinə dəyişib, Azərbaycanın şərq hissəsi, o cümlədən Bakının daşnak-bolşevik işğalından azad edilməsi üçün ilk zəmin yaradıb. Daşnak-bolşevik birləşmələrini darmadağın edən Qafqaz İslam Ordusunun Bakı istiqamətində başlatdığı azadlıq yürüşündə növbəti şanlı qələbə iyulun 20-də mühüm strateji məntəqə olan Şamaxı şəhərinin azad edilməsi olub. Bakını əldə saxlamaq üçün müxtəlif qüvvələrdən kömək uman daşnak və bolşeviklər buna nail ola bilməyiblər. Qafqaz İslam Ordusunun avqustun 5-dən Bakı üzərinə intensiv hücumları qarşısında dayana bilməyən həmin qüvvələr geri çəkilib. 1918-ci ilin sentyabrında yaranmış beynəlxalq vəziyyət Bakının tezliklə azad olunmasını zəruri edib. Cümhuriyyət rəhbərləri Bakının azad edilməsi üçün ardıcıl iş aparıblar. Peşəkar Qafqaz İslam Ordusu güclü müqavimətə baxmayaraq, sentyabrın 15-də dörd mindən çox əsgər və zabiti şəhid vermək bahasına da olsa, Bakını düşmənlərdən azad edib. Bu tarixi günü qeyd etdiyimiz bir vaxtda hər birimizin qəlbindən Azərbaycan əsgərinin eyni sevinci, qüruru bizə Qarabağı erməni işğalından azad etməsi ilə yaşatması arzusu keçir. Biz inanırıq ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yaradılmış güclü ordumuz buna nail olacaq. Müasir Azərbaycan Ordusu düşmən işğalındakı ərazilərimizi azad etməyə, ölkənin ərazi bütövlüyünü bərpa etməyə tam qadirdir. 2016-cı ilin aprel döyüşləri ordumuzun gücünü və döyüş əzmini bir daha aydın göstərdi, işğalçıya Azərbaycan əsgərinin qələbə əzmini nümayiş etdirdi. Biz veteranlar erməni işğalı altındakı Azərbaycan torpaqlarının şanlı ordumuz tərəfindən azad ediləcəyinə inanır və bu müqəddəs işdə ordumuzun yanında olduğumuzu bildiririk.

Tədbirdə Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin məsul əməkdaşı Rasim Mirzəyev, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tarix kafedrasının müdiri Firdovsiyə Əhmədova, Prezident yanında Bilik Fondunun sektor müdiri Hacı Nərimanoğlu və başqaları çıxış edərək Bakının düşmənlərdən azad olunması ilə bağlı 1918-ci ilin aprel-sentyabr aylarında Cümhuriyyət xadimlərinin fəaliyyətindən, Qafqaz İslam Ordusunun şücaətindən danışıblar. Qeyd ediblər ki, bu tarix Türkiyə və Azərbaycan arasında qardaşlıq münasibətlərinin və birliyin nümunəsidir. Bakının daşnak-bolşevik qüvvələrinin işğalından azad edilməsinin 100 illiyinin qeyd olunması tariximizin geniş auditoriyaya, xüsusilə də gənclərə aydın çatdırılması və cəmiyyətdə təbliğ olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Çıxış edənlər Azərbaycan Ordusunun öz sələflərinin yolunu şərəflə davam etdirdiyini və yaxın gələcəkdə qəhrəman Azərbaycan əsgərinin üçrəngli bayrağımızı hazırda işğal altında olan bütün ərazilərimizdə dalğalandıracağına inandıqlarını bildiriblər.

---

*Fiziki hazırlıq*

# "Gücümüzü daha da artırırıq"

*İdman sağlam həyatın qarantıdır. İdman bədənin hər nahiyəsini işlədərək, ürək-damar sisteminin düzgün fəaliyyətini tənzimləyir və psixoloji gərginliklərin aradan qaldırılmasında yardımçı olur. Bu baxımdan idman insan həyatı üçün faydalıdır.*



İdmanı fiziki güc qazanmaq və ya psixoloji gərginliyi aradan qaldırmaq üçün edənlərə həvəskar idmançı deyilir. Bunu düşmən qarşısında həm psixoloji, həm də fiziki güclü olmaq üçün edənlərə isə hazırlıqlı döyüşçülər deyilir. Şəxsi heyətin sağlamlığı və mənəvi-psixoloji durumunu nəzərə alaraq ordumuzda fiziki hazırlığa xüsusi önəm verilir.

"N" hərbi hissəsində olarkən idman saatında şəxsi heyətin fiziki hazırlığına nəzarət edən leytenant Emil Həsənovla həmsöhbət oluruq. İdmanın faydalarından söz açan zabit bildirir ki, günün nizam qaydasına uyğun olaraq komandir heyətinin rəhbərliyi ilə şəxsi heyətə idman şəhərciyində fiziki hazırlıq dərsləri keçirilir. "Gündəlik idmanla məşğul olan əsgərlər hər növ xəstəliyə və yorğunluğa tab gətirə bilir. Fiziki hazırlıqlı əsgərlər döyüş meydanında çox yorulmazlar. Bu da qalib əsgər olmaları ilə nəticələnər", - zabit Emil Həsənov deyir.

8 il boksla məşğul olan əsgər Xəqani Lətifov bildirir ki, fiziki hazırlıqlı insanlar cəmiyyət arasında təmkinli və xoşbəxt görünmələri ilə seçilir. Həmçinin mütəmadi idman, idarə olunan qida rejimi artıq çəkinin olmamasına, düzgün bədən quruluşuna gətirib çıxarır ki, bu da insan övladı üçün ayrıca xoşbəxtlikdir.

Ağır atletika ilə məşğul olan əsgər Murad Həsənova görə idmanla məşğul olan insanların yaşam tərzi, məşğul olmayanlardan daha formalı və qaydasında olur. Sağlam yaşam tərzi üçün hər bir insan idmanı həyatına daxil etməlidir. Fiziki hazırlıq insanın həyatında məcburiyyət deyil, həzz aldığın fəaliyyət olmalıdır.

Digər həmsöhbətimiz isə 3 il güləşlə məşğul olan əsgər Qürbət Qurbanovdur. Cəbrayıl rayonundan hərbi xidmətə çağırılan gənc idmanın əsgər üçün xüsusi əhəmiyyətini vurğulayaraq, öz gücləri ilə erməni əsgərini dizə gətirəcəklərindən danışır.

- Hər birimiz güclü Azərbaycan Ordusunun əsgəriyik. Mütəmadi təlimlər zamanı döyüş hazırlığımızı, fiziki hazırlıq dərslərində isə gücümüzü artırırıq. Bir məqsədimiz var: Qarabağı azad etmək. Bunun üçün həm təlimlərdə, həm də fiziki hazırlıq dərslərində gücümüzə güc qatırıq. Tezliklə, erməni əsgərini məğlub edib, torpaqlarımızı azad edəcəyik.

Zabit Emil Həsənov yenidən söhbətə qoşularaq əsgər Xəqani Lətifovun idman nailiyyətlərindən söz açır. İdman görünüşlü, sərt baxışlı əsgərimizin ikiqat Azərbaycan çempionu olduğunu öyrənirik. Gənc zabit deyir ki, əsgər X.Lətifov hərbi xidmətə başa vurduqdan sonra dünya çempionatına qatılmağı və orada erməni idmançısı ilə üz-üzə gəlməyi arzulayır. Bu arzusu yerinə yetərsə, mütləq qələbə qazanacağına, həmçinin Ali Baş Komandanın döyüş əmri verdiyi gün bizlərlə çiyin-çiyinə vuruşacağına söz verib.

Fiziki hazırlıqlı əsgərlərin döyüş ruhuna, onların Vətən sevgisinə şahid olmaq bir başqa qürurdur. Erməni əsgərləri onların gözlərindəki nifrəti, ürəklərindəki Vətən sevgisini görsə, bir an da qarşılarında durmağa cəsarət etməzlər. Uğurlarınızın bol olması diləyiylə...

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar: 1. Hərbi qulluqçuların statusunun hüquqi təminatı.**
**2. Hərbi qulluqçuların və onların ailə üzvlərinin hüquqları.**
**3. Hərbi qulluqçuların təklif, ərizə və şikayət vermə hüquqları.**
**4. Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası.**

**Mövzu:** Hərbi qulluqçuların statusu, onların və ailə üzvlərinin sosial müdafiəsi.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, hərbi xidmətkeçmə haqqında qanunvericilik aktlarından, Daxili Xidmət və İntizam nizamnamələrindən istifadə edərək dinləyicilərə hərbi qulluqçuların statusu, hərbi qulluqçulara və onların ailə üzvlərinə mövcud qanunvericiliklə şamil edilən hüquqlar haqqında ətraflı məlumat verməli və öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə almaqla mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

### *Hərbi qulluqçuların statusunun hüquqi təminatı*

Cəmiyyətin tərkib hissəsi olan ordu xidmətkeçmə şəraitinə və xüsusiyyətlərinə görə digər fəaliyyət sahələrindən fərqlənir. Buna görə də hərbi xidmətkeçmə qaydaları, eləcə də hərbi xidmət keçən vətəndaşların vəzifə və hüquqları xüsusi qanunvericilik aktları ilə tənzimlənir.

Azərbaycan Respublikasının əsas qanunu olan Konstitusiyanın 9-cu maddəsində göstərilir ki, "Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr yaradır. Silahlı Qüvvələr Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir". Konstitusiyanın 76-cı maddəsinə əsasən, "Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər".

Azərbaycan Ordusunun vəzifələri, hərbi xidmətin şəraiti və xarakteri "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının qanunu ilə müəyyənləşdirilib. Bu qanundan irəli gələn tələblərə əsasən digər hərbi qanunvericilik aktları, o cümlədən hərbi xidmət keçən vətəndaşların hüquq və vəzifələrini müəyyən edən "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının 25 dekabr 1991-ci il tarixli qanunu qəbul edilmişdir. Həmin qanuna görə, hərbi qulluqçunun statusu Azərbaycan Respublikasının Konstitusiyasında, Azərbaycan Respublikasının başqa qanunvericilik aktlarında müəyyən edilən hüquqlardan, vəzifələrdən, bunların həyata keçirilməsi üçün təminatlardan və məsuliyyətdən ibarətdir. Hərbi qulluqçular Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyənləşdirilən, hərbi xidmətin xüsusiyyətləri ilə bağlı əlavələrlə və məhdudiyyətlərlə Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarından istifadə edirlər.

"Hərbi qulluqçuların statusu haqqında" qanunda deyilir: "Heç kəsin ixtiyarı yoxdur ki, hərbi qulluqçuları və onların ailə üzvlərini Azərbaycan Respublikasının Konstitusiyasında və qanunlarında Azərbaycan Respublikasının vətəndaşları üçün nəzərdə tutulmuş hər hansı hüquq və azadlıqlardan məhrum etsin və ya onların hüquqlarını məhdudlaşdırsın, buna yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına müvafiq surətdə yol verilir".

Dövlət orqanları, müəssisələri, idarələri, təşkilatları, vəzifəli şəxslər, hərbi idarəetmə orqanlarının komandirləri (rəisləri) öz səlahiyyətləri və vəzifələri daxilində hərbi qulluqçuların statuslarını təmin edirlər. Hərbi qulluqçuların hüquqlarının həyata keçirilməsi sahəsində vəzifələrini icra etməməkdə və ya lazımınca icra etməməkdə təqsiri olan şəxslər qanunvericiliyə müvafiq qaydada məsuliyyət daşıyırlar.

### *Hərbi qulluqçuların və onların ailə üzvlərinin hüquqları*

"Hərbi qulluqçuların statusu haqqında" qanun ilə hərbi qulluqçuların və onların ailə üzvlərinin hüquqları müəyyənləşdirilib. Qanunun 6-cı maddəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşı olan hərbi qulluqçular Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq Azərbaycan Respublikasının seçkili dövlət orqanlarına seçmək və seçilmək, ümumxalq müzakirələrində və səsvermələrində (referendumlarda) iştirak etmək hüquqlarına malikdirlər. Ancaq qanuna görə, hərbi qulluqçular siyasi məqsədlər güdən siyasi partiyaların və kütləvi ictimai təşkilatların üzvü ola bilməzlər.

Dövlət sirrini və hərbi sirri açmamaq şərtilə hərbi qulluqçuların söz və mətbuat azadlığına, əqidə azadlığına, öz əqidəsini sərbəst ifadə etməsinə, 8-ci maddədə isə hərbi qulluqçuların şəxsi toxunulmazlığına təminat verilir. Hərbi qulluqçular yalnız məhkəmənin qərarına əsasən, habelə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələrinin tələblərinə uyğun olaraq hərbi hissə komandiri (rəisi) tərəfindən intizam qaydasında həbs edilə bilərlər.

Qanunun 9-cu maddəsi ilə hərbi qulluqçuların əmək hüququ müəyyən edilir. Bu maddəyə əsasən, vətəndaşların həqiqi hərbi xidmət keçdiyi dövr onların ümumi əmək stajına daxil edilir. Hərbi qulluqçuların elmi, texniki, bədii və başqa yaradıcılıq azadlığına təminat verilir, bir şərtlə ki, bu, onların hərbi xidmət vəzifələrinin icrasına mane olmasın.

Hərbi xidmətdən buraxılarkən hərbi qulluqçuların təhsili və ixtisası nəzərə alınmaqla işə düzəlməsinə təminat verilir. Hərbi xidmətdən buraxılmış hərbi qulluqçulara maddi yardım göstərilməsi və onların məişət şəraitinin təmin edilməsi üçün yerli icra hakimiyyəti başçıları müəssisələrin, idarələrin, təşkilatların könüllü surətdə ayırdıqları vəsait hesabına hərbi qulluqçuların sosial müdafiəsi fondunu yarada bilərlər.

Müddətli hərbi xidmətə çağırılanadək işləmiş şəxslərin həmin müəssisədə, idarədə, təşkilatda əvvəlki vəzifəyə və ya buna bərabər işə girmək hüququ saxlanılır.

Hərbi qulluqçuların pul təminatı və maddi təminat hüquqları var. Qanunun 10-cu maddəsində göstərilir ki, hərbi xidmətin şəraitindən, ixtisasından, hərbi peşədən, hərbi rütbədən və hərbi xidmətdə olmağın müddətindən asılı olaraq hərbi qulluqçuların dövlət hesabına təminat xərcliyi almaq hüququ vardır.

Hərbi qulluqçular Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi normalar üzrə dövlət hesabına ərzaq və əşya əmlakı almaq, ərzaq və ya əşya əmlakı üçün pul kompensasiyası almaq hüququna malikdirlər.

### *Hərbi qulluqçuların təklif, ərizə və şikayət vermə hüquqları*

"Hərbi qulluqçuların statusu haqqında" qanunun 22-ci maddəsinə görə, hərbi qulluqçuların dövlət orqanlarına təklif göndərmək, ərizələr vermək, habelə vəzifəli şəxslərin, dövlət orqanlarının, vətəndaşların (o cümlədən hərbi qulluqçuların) hüquqa zidd hərəkətləri barəsində müəyyən edilmiş qaydada şikayət etmək hüquqları var.

Təminat xərcliyinin verilməməsi, hərbi qulluqçular barəsində komandirlərin (rəislərin) və ya başqa hərbi qulluqçuların qanunsuz xidməti sərəncamları (hərəkətləri) barəsində, hərbi xidmət münasibətlərinin başqa məsələləri barəsində şikayətlər Silahlı Qüvvələrin nizamnamələrində nəzərdə tutulmuş qaydada verilir, nəzərdən keçirilir və həll edilir.

Hərbi qulluqçular vəzifəli şəxslərin və hərbi idarəetmə orqanlarının nizamnamə münasibətləri çərçivəsindən kənara çıxan və hərbi qulluqçuların hüquqlarını və şəxsi ləyaqətini tapdalayan hüquqa zidd hərəkətləri barəsində məhkəməyə şikayət edə bilərlər.

Şikayət verilməsinə mane olmaq və buna görə şikayət verəni cəzalandırmaq və ya təqib etmək qadağandır. Bunda təqsirli olanlar Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada məsuliyyətə cəlb edilirlər.

Azərbaycan Respublikasının "Vətəndaşların müraciətlərinə baxılması haqqında" 10 iyun 1997-ci il tarixli qanununun 4-cü maddəsində göstərilir ki, hərbi qulluqçuların xidmətlə əlaqədar müraciətlərinə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət və İntizam nizamnamələrinə uyğun olaraq baxılır.

Daxili Xidmət Nizamnaməsinin 5-ci maddəsinə görə, hərbi qulluqçu xidmət məsələlərinə dair özünün bilavasitə rəisinə və ancaq onun icazəsi ilə komanda üzrə daha böyük rəisə müraciət edə bilər. Hərbi qulluqçu şəxsi məsələlər üzrə, bir qayda olaraq, özünün bilavasitə rəisinə, müstəsna hallarda isə böyük rəisə müraciət edir.

Hərbi qulluqçu təklif, ərizə və şikayət verdikdə İntizam Nizamnaməsinin müddəalarını rəhbər tutmalıdır (Qrup rəhbəri dərsə hazırlaşarkən İntizam Nizamnaməsinin 107-124-cü maddələrini diqqətlə öyrənməli və dərs zamanı onları dinləyicilərə çatdırıb şərh etməyə hazır olmalıdır).

### *Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası*

"Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası qanununun 27-ci maddəsi ilə hərbi qulluqçuların dövlət tərəfindən məcburi şəxsi sığortalanması nəzərdə tutulub. Qanun müəyyən edir ki, hərbi xidmət vəzifəsinin icrası dövründə həlak olmaq (vəfat etmək), xəsarət almaq (yaralanmaq, kontuziya almaq), səhhəti korlanmaq, hərbi xidmət keçmə ilə bağlı bədbəxt hadisələr və ya xəstəliklər ehtimalına qarşı hərbi qulluqçular hərbi xidmətə daxil olduqları andan dövlət tərəfindən məcburi sığortalanırlar. Hərbi xidmət keçərkən əmək qabiliyyətini itirmiş şəxslərin sosial təminatına dövlət zəmanət verir.

Sığortalanmanın qaydası, şərtləri və sığorta ödənişlərinin məbləği Azərbaycan Respublikasının "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" 25 iyul 1997-ci il tarixli qanunu ilə tənzimlənir. Bu qanun hərbi qulluqçuların sosial müdafiəsini gücləndirmək məqsədilə onların həyatının və səhhətinin dövlət icbari şəxsi sığortası qaydalarını və şərtlərini müəyyən edir. Hərbi qulluqçuların sığortası dövlət sığorta orqanları tərəfindən həyata keçirilir.

Sığorta hadisələri baş verdikdə sığorta məbləğindən faizlə aşağıdakı sığorta ödənişləri verilir:

Sığorta edilən xidmətdə (toplanışda) olduğu zaman:

- həlak olduqda (vəfat etdikdə) - 100 faiz;
- yaralanma (kontuziya alma) nəticəsində xidmətdən (toplanışdan) buraxıldıqdan sonra 3 il müddətində öldükdə - 100 faiz;
- itkin düşdükdə - 100 faiz;
- xidməti vəzifəsini yerinə yetirməsi ilə əlaqədar olaraq sığorta edilən xidmətdən (toplanışdan) buraxıldığı gündən 3 il müddətinədək əlillik təyin edildikdə:

a) I qrup - 80 faiz;
b) II qrup - 60 faiz;
c) III qrup - 40 faiz;

- ağır yaralandıqda, yaxud səhhəti pozulduğuna görə xidməti vəzifəsini yerinə yetirməyə yararsız hesab edildikdə - 25 faiz;
- yüngül xəsarət (yaralanma, travma, kontuziya) aldıqda - 5 faiz.

Qanunun 8-ci maddəsində deyilir: "Sığorta edilənə və ya onun vərəsələrinə sığorta məbləğinin verilməsindən aşağıdakı hallarda imtina edilir: Sığorta edilənin sığorta hadisəsi ilə birbaşa bağlı olan qəsdən cinayət törətdiyi barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda, yaxud sığorta edilən sərxoş vəziyyətdə hərəkət etdikdə".

Qrup rəhbəri mövzunu şərh edərkən Azərbaycan Respublikasında hərbi qulluqçuların və onların ailə üzvlərinin sosial-hüquqi müdafiəsi dövlət rəhbərliyinin daim diqqət mərkəzində olmasını dinləyicilərin nəzərinə çatdırmalıdır.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

*Ordu və cəmiyyət*

# "Ordu - ziyalı əlaqələri günümüzün tələbidir"

*Rubrikamızın qonağı AMEA-nın həqiqi üzvü, Azərbaycan Dillər Universitetinin rektoru, əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Kamal Abdullayevdir.*



**- Kamal müəllim, ordunun şəxsi heyətinin əsas hissəsini gənclər təşkil edir. Bu mənada gənclərin ordu sıralarına hazırlanmasında ordu-cəmiyyət əlaqələrinin əhəmiyyətini necə qiymətləndirirsiniz?**

- Azərbaycan Ordusunun cəbhə xəttində yerləşən hərbi hissələrində çox olmuşam. Burada xidmət edən şəxsi heyətlə müxtəlif görüşlər keçirmişik. Bu görüşlər səngərdə, ordumuzun müxtəlif bölmələrində, təlim meydanlarında olub. Hiss etmişəm ki, ordumuz Azərbaycan cəmiyyətinin ən çox seçilən, sevilən, hörmət olunan hissəsidir. Orduda xidmət edən əsgərlər də, zabitlər də kifayət qədər intellektual, kifayət qədər ağıllı, düşüncəli insanlardır. Sevindirici məqam ondan ibarətdir ki, bu gənclər daim öyrənməyə can atırlar. Onlarla keçirdiyimiz görüşlərdə verilən suallardan, aparılan söhbətlərdən belə qənaətə gəlmişəm ki, gənclərimiz həm orduda xidmət etdiyi dövrdə bir əsgər kimi, həm də cəmiyyətin bir üzvü kimi son dərəcə ağılla, son dərəcə həssaslıqla düşünə bilən aparıcı qüvvədir. Bu da ondan irəli gəlir ki, ordumuzda tarixin bir çox məqamlarında nəsildən-nəslə keçmiş ideoloji və mənəvi bir ruh var. Ruhsuz ordumuzun bugünkü vəziyyətini təsəvvür etmək mümkün deyil.

**- Bu ruh əcdadlarımızın qərinələr keçib gələn nəsillərdən-nəsillərə ərməğan etdiyi vətənpərvərlik, mübarizlik, döyüşkənlik ruhu deyilmi?**

- Bəli, bu ruh Dədə Qorquddan gələn ruhdur, bu ruh Şah İsmayıl Xətai ruhudur. Bu ruhun varlığında xanlıqlar dövrünün sərkərdələrinin rəşadəti özünü göstərir. Bu ruhun özülündə Azərbaycan Xalq Cümhuriyyəti dövründə əsgər və zabitlərin ölkənin müstəqilliyi uğrunda apardığı mübarizələrin ruhu dayanır. Bu ruh Böyük Vətən müharibəsində Azərbaycan oğullarının hünərindən güc alır. Bu gün Azərbaycan əsgərinin Qarabağ uğrunda gedən döyüşlərdə göstərdiyi rəşadət, qəhrəmanlıq bizə deməyə əsas verir ki, ordumuz, xalqımız Ali Baş Komandanın iradəsini, cəsarətli addımlarını dəstəkləyib, əmr və tapşırıqlarını həyata keçirməyə hazırlıqlı bir qüvvədir. Əlbəttə, bu bizim düşmənlərimizi qorxudur. Onlar müxtəlif təxribatlarla, yalanlarla Azərbaycan Ordusunun müasir durumuna kölgə salmağa çalışırlar. Ordu ilə təmasda olan hər bir vətəndaşımız yaxşı bilir ki, əzmkarlığı ilə seçilən hərbi qulluqçularımız Vətəninə, xalqına sədaqətlidirlər və millət, dövlət öz taleyini onlara həvalə edib.

**- Ordu ilə cəmiyyət əlaqələrinin qurulmasında mühüm rol oynayan ordu-ziyalı münasibətləri haqqında fikrinizi öyrənmək maraqlı olardı...**

- Azərbaycan cəmiyyətində ordu-ziyalı əlaqələri və qarşılıqlı əməkdaşlıq həmişə olub. Ziyalılarımız müxtəlif bölgələrə gedir, əsgər və zabitlərimizlə maraqlı görüşlər keçirirlər. Hesab edirəm ki, bu əlaqələrin daha da güclənməsinə ehtiyac var. Əsgərlərimizin, gənc zabitlərimizin öncədən qeyd etdiyim kimi daxilində öyrənmək həvəsi var. Onlar bizə maraqlı suallarla müraciət edirlər. Onlar üçün dünyada gedən proseslər çox maraqlıdır. Ordumuzda regionda və dünyada gedən siyasi proseslərin analitik təhlilini aparan gənc zabitlərimizə də çox rast gəlmişəm. Ordu-ziyalı əlaqələri günümüzün tələbidir.

**- Kamal müəllim, ordumuzun sıralarında Azərbaycanda yaşayan müxtəlif millətlərin nümayəndələri xidmət edir. Onlar Vətənə övladlıq borcunu layiqincə yerinə yetirirlər...**

- Multikulturalizm və tolerantlıq istiqamətində cəmiyyətimiz bu gün son dərəcə böyük nailiyyətlər əldə edib. Azərbaycan Prezidenti cənab İlham Əliyev də multikulturalizmi Azərbaycanın dövlət siyasəti elan edib. Bu gün ordumuzda multikulturalizmin müxtəlif əlamətlərini görmək olar. Ölkəmizdə yaşayan müxtəlif millətlərin nümayəndələri Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmanlıq nümunələri göstəriblər, hətta şəhid olurlar. Onların sırasında ən yüksək ada, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülənlər də var. Bu ümummilli liderimiz Heydər Əliyevin bizim qarşımıza qoyduğu vəzifələrə bilavasitə cavabdır və onun ideyalarına sədaqətdir. Ölkəmizdə yaşayan müxtəlif millətlərin nümayəndələri bu gün bir yumruq kimi birləşiblər. Azərbaycanın haqq işi uğrunda birgə mübarizə aparırlar. Ulu Öndər həmişə deyirdi ki, Azərbaycanda yaşayan xalqların gücü bütövlükdə Azərbaycanın gücüdür. Onlar Azərbaycanımızın ərazi bütövlüyü uğrunda döyüşə həmişə hazırdırlar. Bu gün ordumuzun əldə etdiyi mənəvi və ideoloji keyfiyyətlərdən biri də budur və bizim üçün bu çox qiymətlidir.

**- Azərbaycan Ordusunun 100 illik yubileyini Kamal müəllim hansı düşüncələrlə qarşıladı?**

- Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə qarşıda duran istənilən vəzifəni asanlıqla həyata keçirmək iqtidarındadır. Yaxşı bilirik ki, dünya ictimaiyyəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini Azərbaycandan da, qarşı tərəfdən də sülh yolu ilə tələb edir. Dünyanın bütün sülhsevər xalqları da buna çağırış edir. Azərbaycan tərəfi dünya ictimaiyyətinin, dünyanın müxtəlif ictimai qurumlarının bu çağırışına hörmət əlaməti olaraq məsələnin sülh yolu ilə həll etmək niyyətini həmişə ortaya qoyur. Amma münaqişənin sülh yolu ilə həll olunması uzanır. Böyük şairimiz Məmməd Arazın təbirincə desək, "Xalq dözür-dözüm həddinəcən, dözür-dözüm səddinəcən...". Xalqın, millətin, dövlətin də səbr kasası dolub. Azərbaycan Ordusunun qazandığı zəfərlər xalqımızın istəyinin real təcəssümüdür. Eyni zamanda düşmənə işarədir ki, Azərbaycan dövləti və onun ordusu istər sülh yolu ilə, istərsə də hərb yolu ilə münaqişənin həllinə nail olacaq. Mən düşmən işğalından azad olunan Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində, Lələtəpədə olmuşam. Azərbaycan Ordusunun bu gün o torpaqlarda artıq qaçılmaz və təkzibedilməz izləri vardır. Həmin ərazilərdə Azərbaycanımızın üçrəngli bayrağı dalğalanır. Bu bütövlükdə Azərbaycan cəmiyyətinin, dövlətinin Dağlıq Qarabağa qayıdışının, tarixi torpaqlarımızın düşmən əsarətindən xilas edilməsinin başlanğıcıdır.

**- Ədəbiyyatda ordu, müharibə mövzusu həmişə aktual olub...**

- Ədəbiyyatda müharibə mövzusu qədim Romada ordu üzərində qurulurdusa, həmin dövrdə Yunanıstanda ayrı-ayrı fərdlərin qəhrəmanlığı əfsanələşirdi. Əsərlərin süjet xətti də onların üzərlərində qurulurdu. Məsələn, Heraklı, Aqamemnonu, Odisseyi, Axillesi və bu kimi qəhrəmanları misal göstərmək olar. Bütün bunların şəxsi qəhrəmanlıqları onları ordunun fövqündən çıxarıb, əlahiddə qüvvəyə çevirirdi. Dediyimiz kimi, ordunun şücaəti, ayrı-ayrı fərdlərin qəhrəmanlığı ədəbiyyata gəlirdi. Amma nə zaman gəlirdi? Troya yürüşü XI əsrdə baş vermişdisə, Homer əsərini iki əsr keçdikdən sonra yazdı. Yaxud Azərbaycanın tanınmış yazıçısı Məmməd Səid Ordubadi "Qılınc və qələm" əsərini XX əsrdə qələmə almışdısa, orada cərəyan edən hadisələr XII əsrdə baş vermişdi. Bütün müharibələr haqqında ən qiymətli əsərlər məsələn, Lev Tolstoyun "Hərb və sülh" romanı kimi əsərlər müharibədən xeyli sonra yazılıb. Əsərdə faktları yazıçı elə təsvir edir ki, elə bil hadisələrin içindədir. Hadisələr yazıçı beynində, əqlində və ürəyində özünəməxsus şəkildə transformasiya edildəndən sonra qələmə alınır. Bütün hadisələr insan beyninin bir guşəsinə yığılır və bunlar ideoloji, mənəvi və insani hisslərin süzgəcindən keçiriləndən sonra hansısa əsər araya-ərsəyə gətirilir.

**- Qarabağ mövzusunda yazılan əsərlər sizi qane edirmi?**

- Qarabağ mövzusunun ədəbiyyata güclü axınının müəyyən zamana ehtiyacı var. Mən heç şübhə etmirəm ki, beyinlərdə bu proseslər yazılır. Bəzən çox maraqlı və məni düşündürən yazılara, əsərlərə rast gəlmişəm. Erməni əsirliyindən, erməni işğalından qaçıb gizlin şəkildə Vətənə dönən insanlarla bağlı yazılan əsərlər diqqətimi çəkib. Tanıdığım bir çox yazıçı var ki, həqiqətən də ədəbiyyata çox dəyərli və sanballı həm bədii, həm də sənədli əsərlər töhfə verib.

**- Kamal müəllim, ordumuzun zabit və əsgərlərinə arzularınız, istəkləriniz...**

- Azərbaycan Ordusunun şəxsi heyətinə can sağlığı arzulayıram. Ordumuzda xidmət edən hər bir zabit və əsgər çox mərd, ləyaqətli və rəşadətli insanlardır. Onlar Ali Baş Komandanın əmrini yerinə yetirməyə hər an hazır olan, gecəsi-gündüzü olmayan ləyaqətli övladlarımızdır. Allah onları qorusun!

**Müsahibəni apardı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyənin İkiyaka dağlarında PKK-ya məxsus sığınacaq və cəbbəxana ələ keçirilib



Türkiyə Silahlı Qüvvələri ölkənin Hakkari bölgəsindəki Yüksekova rayonunda, dəniz səviyyəsindən 3500 metr yüksəklikdə olan İkiyaka dağlarında PKK terror təşkilatına qarşı antiterror əməliyyatlarını davam etdirir.

İkiyaka dağlarında qayalıqlar altındakı uzun tunelə çıxışı olan dörd sığınacaq ələ keçirilib. Burada terrorçulara məxsus cəbbəxana, o cümlədən yaşayış üçün müxtəlif ləvazimatlar aşkarlanıb.

Qeyd edək ki, PKK İkiyaka dağlarındakı sığınacaqlarını "alınmaz qala" hesab edirdi.

### İŞİD-in fəal üzvlərindən biri Kiyevdə saxlanılıb



Ukraynanın "Borispol" aeroportunda sərhədçilər İŞİD terror təşkilatının əməliyyatlarında da iştirak edən Tacikistan vətəndaşını saxlayıblar.

29 yaşlı Tacikistan vətəndaşı ölkəsinin hüquq-mühafizə orqanları tərəfindən İnterpol vasitəsilə axtarışa verilib. Məlum olub ki, saxlanılan Tacikistan vətəndaşı 2016-cı ildə Suriyaya gedib və İŞİD terror təşkilatının ən fəal üzvlərindən biri olub.

### Əfqanıstanda baş verən partlayış nəticəsində həlak olanların sayı 68 nəfərə çatıb



Əfqanıstanın şərqində yerləşən Nanqarhar əyalətinin Mohmand Dara rayonunda etiraz aksiyası zamanı baş verən partlayış nəticəsində həlak olanların sayı 68 nəfərə çatıb.

Əyalət qubernatorunun nümayəndəsi partlayışın terrorçu-kamikadze tərəfindən törədildiyini bildirib. Onun sözlərinə görə, etirazçılar Mohmand Daranın yaxınlığında yerləşən Açin rayonunun polis qüvvələri komandirinin istefasını tələb edirdilər. Hələlik ölkədə fəaliyyət göstərən heç bir qruplaşma hadisənin məsuliyyətini üzərinə götürməyib. Taliban hərəkatı isə partlayışla əlaqəsinin olmadığını bildirib.

### "Der Spiegel" qəzeti: "Vostok-2018" manevrləri ABŞ üçün siqnaldır



Almaniyanın "Der Spiegel" nəşrinin fikrincə, Rusiyanın sentyabrın 11-də başlayan "Vostok-2018" manevrləri, hər şeydən əvvəl ABŞ üçün siqnaldır.

Bu barədə nəşrin saytında dərc edilmiş məqalədə bəhs olunur. "Əsgərlərin və bir-birinin əlini sıxan liderlərin (RF Prezidenti Vladimir Putin və ÇXR-in sədri Si Cinpin) əks olunduğu kadrlar dünyanı dolaşacaq və bu, hər şeydən öncə ABŞ-a mesajdır", - şərhdə belə deyilir. Rusiya ilə müqayisədə Çin o qədər nəzərə çarpmasa da, manevrlər "Çinin iştirakı baxımından xüsusən diqqət çəkir". "Der Spiegel" xatırladır ki, Pekin manevrlərə 3,2 min əsgər, 900 tank və digər zirehli texnika, 30 təyyarə və helikopter göndərib. Ekspertlərin fikrincə, bu, iki ölkənin hərbi əməkdaşlığında yeni səviyyə deməkdir.

Nəşr hesab edir ki, ABŞ ilə Çin arasında ticarət münaqişəsi və Qərbin Rusiyaya qarşı sanksiyaları RF və ÇXR-i yaxınlaşdırıb. Vladimir Putin və Si Cinpin bu il artıq üçüncü dəfə görüşürlər. "Bu, uzun müddət düşmənçilik edən qonşu dövlətlərin tarixində münasibətlərin yaxşı fazasından xəbər verir", - deyə nəşrdə qeyd olunur.

Sentyabrın 11-dən 17-dək Rusiyanın Uzaq Şərq ərazisində və dəniz akvatoriyasında, həmçinin ona bitişik Sakit okean akvatoriyasında irimiqyaslı "Vostok-2018" manevrləri keçirilir. Orada ümumilikdə 300 min hərbi qulluqçu, mindən çox təyyarə, helikopter və pilotsuz uçuş aparatları, 36 minədək tank, zirehli transportyorlar, 80-dək gəmi və təchizat gəmiləri iştirak edir.

**AZƏRTAC-ın materialları əsasında**

*Vətənpərvərlik*

# Şəhidə - şəhidliyə verilən salam

Dövlətin gənclər siyasəti məhz bu amil üçündür. Ümummilli liderimiz Heydər Əliyev daim gənclərə qayğı göstərərək, onların bir fərd kimi yetişməsinə, milli və vətənpərvərlik ruhunda tərbiyəsinə xüsusi önəm verirdi. Ulu Öndər nitqlərinin birində deyirdi: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur." Bu gün əsası Ulu Öndər tərəfindən qoyulmuş dövlətin gənclər siyasəti İlham Əliyev tərəfindən uğurla davam etdirilərək mahiyyət və keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Gənclər siyasətinin, gənclərə diqqət və qayğının əsasında ölkəyə layiqli vətəndaş və sağlam nəslin yetişdirilməsi dayanır. Dövlət başçısı hər zaman gəncləri narahat edən problemlərlə maraqlanır, bu istiqamətdə öz tövsiyə və tapşırıqlarını verir. Bunun nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar.

Gənclərimizin hərbi vətənpərvərlik tərbiyəsi haqqında yazı hazırlamaq üçün məktəblərdən birinin qarşısındayam. Məktəbin həyəti qələbəlikdir - dərsə gedən, sinif otağına tələsən... Düşünürəm: onlar Vətənimizin gələcəyidirlər. Şəhidliyə ucalan oğul və qızlarımız da bu hissləri yaşayaraq canlarını Vətənimizin parlaq gələcəyi üçün qurban verməkdən çəkinmədilər.

Qürur hissi ilə deyə bilərik ki, gənclərimiz də Vətən qarşısında öz vəzifələrini layiqincə başa düşürlər. Ölkəmizdə Vətənini sevən, hər zaman onun tərəqqisinə çalışan, azadlığı uğrunda canını qurban verməyə hazır olan gənclər ordusu formalaşıb.

Avtobus dayanacağındakı məktəblilərin söhbətini hələ də xatırlayıram. Danışırdılar. Vətənin, torpağın müqəddəsliyindən danışırdılar. O qədər səmimi, saf idilər ki! Tərtəmiz dünyanın məsum varlıqları. Vətənimizin sərhədlərində xidmət edəcəklərindən inam qarışıq qətiyyətlə danışırdılar. Bu inam, bu qətiyyət ruhumu göylərə qaldırdı, qəlbimi qürurlandırdı...



Qələbəliyin içində diqqətimi baxışlarını məktəbin adını daşıdığı Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevin büstündən ayırmadan inamlı addımlarla ona tərəf gedən məktəbli cəlb etdi. Bu bənzərsiz yerişə biganə qala bilmədim. Uşaq büstün qarşısında dayandı, əsgəri salam verdi. Bir anlıq fikrə daldı, başını qaldırıb göyünənginliklərinə baxdı.

Bu anlarda sanki qəlbinin dərinliyindən keçirdiklərini duyurdum: "Vətənimizin, bizlərin gələcəyi üçün canından keçərək şəhidliyə yüksələnlərin ruhları qarşısında borcumuzu dərslərimizi yaxşı oxumaqla, Vətənimizə, millətimizə layiqli vətəndaş kimi formalaşmaqla verə bilərik. Vətənimin adını, bayrağını yüksəklərə ucaltmaq arzusuyla yaşayıram. Bu günün əsgərinin sərhədlərimizə çəkəcəyi səngərlərdə sabahın əsgəri olan bizlər layiqincə dayanacağıq..."

Ordumuzun aprel zəfərindən sonra sabahın əsgərləri onlara bu güvənli həyatı verən, düşmənin məğlubedilməzlik mifini darmadağın edən, təhlükəsiz həyat yaşamlarına daha dönməz inam olan qüvvəylə - qorxubilməz Azərbaycan əsgəriylə qürurlanırlar. Onların düşüncəsində sakit, təhlükəsiz həyat bu torpağı qoruyacaq, Vətənə sevgiləri ilə düşmənə qalib gələcək gücə, cəsarətə malik Azərbaycan əsgərinin ayaq səslərindədir. Azərbaycan əsgərləri ayaqlarını yerə daha möhkəm basdıqca sabahın əsgərlərinin Vətən sevgisi daha möhtəşəm olur. Azərbaycan əsgəri səngərində möhkəm dayanırsa, bu səngərləri sərhədlərə köçürmək üçün xidmət edirsə, sabahın əsgərləri həyata məhəbbətlə böyüyürlər.

Bu günün əsgəri Vətənin keşiyindədir. Sabahın əsgərləri bu günün əsgərlərinə güvənirlər. Bu güvənlə uşaqlığının hər gününü doya-doya yaşayırlar, böyüməkdən qorxmadan. Onlarda bu güvəni yaradan qəhrəman Azərbaycan əsgəridir. Gənclərimiz Azərbaycan əsgəri olacaqları günün həyəcanı, sevinci, ümidi ilə böyüyürlər.

Vətənə, torpağa, bayrağa, xalqa sevgi ilə yaşayan, böyüyən gəncliyimiz Vətən sevgisinin, Vətənə bağlılığın, Vətənin müqəddəsliyinin nə olduğunu tam anlamı ilə dərk edirlər. Həyatlarının hər dönəmində "Mənim Vətənim!" kəlməsinin qürurunu yaşayacaqlar. Məktəblinin bu əsgəri salamını Yusif Mirzəyevin timsalında Bəxtiyara, Gültəkinə, Salatına, Mübarizə, Samidə, Fəridə, Murada - bütün şəhidlərimizə, şəhidliyə verilən salam, ehtiram bilirəm. Şəhidlərin ruhu onun əsgəri salamını böyük ehtiramla alır, şübhəsiz...

**Baş leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# "Dana" haubitsa topu

Keçmiş Çexoslovakiyanın ilk özüyeriyən "Dana" haubitsası silahlanmaya 1981-ci ildə qəbul edilib. "Tatra T815" 8x8 yük avtomobilinin bazasında quraşdırılıb. Hansı ki, yol olmayan yerlərdən keçməyə qadirdir. Maşının mərkəzində qaynaqlanmış cüttərkibli zirehlənmiş qüllə quraşdırılıb. Ön hissəsində heyətin yerləşdirilməsi üçün bölmə, arxa hissəsində isə motor bölməsi ayrılıb. Onun bütöv qaynaqlanmış qülləsi şəxsi heyəti atıcı silahlardan və qəlpələrdən qoruyur. Haubitsanın şinlərində təzyiqə nəzarət etmək üçün sistem quraşdırılıb. Qülləsi sağ və sol tərəfə dönə bilir. Haubitsa hidravlik avtomatik təchizetmə sistemi ilə də təchiz edilib. Tuşlayıcı operator tək-tək və avtomatik olaraq atəş aça bilər. Maksimal atəş tezliyi dəqiqədə 5 atəş, orta atəş tezliyi 7 dəqiqə ərzində 30 atış təşkil edir. "Dana" haubitsasının heyəti 5 nəfər, çəkisi 29250 kiloqram, qabarit ölçüləri 11,156x3x2,85 metrdir. Onun güc qurğusu 12 silindrli dizel mühərrikidir. Mühərrikinin gücü 345 at gücündədir. Ehtiyat hərəkəti 740 kilometr, maksimal hərəkət sürəti saatda 80 kilometr, maneələri aşma hündürlüyü 0,6 m, çuxurları keçmə eni 2 metrdir.



**Hazırladı: Svetlana YUSUBOVA, "Azərbaycan Ordusu"**

# İdman

## Ağır atletika üzrə Azərbaycan birinciliyində Kənan Xəlilov fəxri kürsünün ən yüksək pilləsinə qalxıb



Şüvəlandakı Ağır Atletika Akademiyasının yarış zalında keçirilən gənclər arasında ağır atletika üzrə Azərbaycan birinciliyində ilk yarış günü başa çatıb.

Yarışda ölkənin bütün regionlarından klub və cəmiyyətləri təmsil edən yüzə yaxın atlet iştirak edir. Yarışda yaşı 20-dək olan atletlər 69 kiloqram çəki dərəcəsində qüvvələrini sınayıblar. Toplam 260 kiloqram (125+135) nəticə göstərən Kənan Xəlilov yarışda qızıl medal qazanıb. İkinci yeri 235 kiloqram (105+130) nəticə ilə Nurlan Rəsulov, üçüncü yeri isə 214 kiloqram (97+117) nəticə ilə Həsənağa Sahibov tutub.

## Voleybol üzrə Azərbaycan yığması Kamerun millisinə qalib gəlib



Qadın voleybolçulardan ibarət Azərbaycan millisi dünya çempionatına hazırlığı Sloveniyada davam etdirir.

Millimiz hazırlıq prosesi çərçivəsində Kamerun yığması ilə yoxlama oyunu keçirib. Görüş millimizin 4:0 hesablı qələbəsi ilə yekunlaşıb. Bakı toplanışı çərçivəsində millimiz Rusiyanın "Uraloçka" və "Dinamo Krasnodar" klubları ilə yoxlama oyununda gücünü sınayacaq.

## Yeniyetmə cüdoçularımız Avropa çempionatının ilk günündə 4 medal qazanıblar



Sentyabrın 13-də Bolqarıstanın paytaxtı Sofiyada yeniyetmə cüdoçular arasında Avropa çempionatı başlayıb.

Çempionatın ilk günündə Azərbaycan millisi 4 medal qazanıb. Turnirdə 60 kiloqram çəki dərəcəsində mübarizə aparan cüdoçumuz Tofiq Məmmədov finaladək inamla irəliləyib. Həlledici görüşdə rusiyalı Konstantin Simeonidisə qalib gələn T.Məmmədov fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Çempionatda 55 kiloqram çəki dərəcəsində çıxış edən idmançılarımız Rövşən Əliyev gümüş, Balabəy Ağayev isə bürünc medala sahib olublar. Qızların mübarizəsində 44 kiloqram çəki dərəcəsində Şəfəq Həmidova yarışı üçüncü pillədə başa vurub.

## Bakıda keçiriləcək cüdo üzrə dünya çempionatının rəsmi saytı istifadəyə verilib



Bakıda keçiriləcək cüdo üzrə dünya çempionatının rəsmi saytı istifadəyə verilib. www.worldjudo2018.com saytı Azərbaycan və ingilis dillərində fəaliyyət göstərir. Saytda Ana səhifə, rəsmi, xəbərlər, təqvim və nəticələr bölməsi yer alıb. Azarkeşlərin dünya çempionatına bilet sifariş etmələri üçün də müvafiq bölmə mövcuddur. Beynəlxalq Cüdo Federasiyasının Prezidenti Marius Vizer, Gənclər və İdman naziri Azad Rəhimov, Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayev və Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadənin salamlama nitqləri də saytda yer alıb.

**AZƏRTAC-ın materialları əsasında**

Leytenant Dadaşov Orxan Sədiyar oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Yaqublı Fərman Telman oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 690
Nüsxə 3525